# Baş Redaktordan



"Azərbaycanın vergi xəbərləri" jurnalı  oxucular qarçısındakı vədini yerinə yetirərək, özünün veb-saytını onların istifadəsinə verir. Bu, səkkiz illik tarixi olan jurnalımız üçün çox mühüm bir hadisə olmaqla  yanaşı, ölkəmizdə vergi sisteminin təkmilləşdirilməsi sahəsində davam edən kompleks islahatların  tərkib hissəsi kimi də dəyərləndirilə bilər.

Veb-saytın istifadəyə verilməsi jurnalın elmi sanbalını artırmağa, müəllif və oxucularla əlaqələri daha da genişləndirməyə xidmət edəcək, respublikada öz kateqroriyasında öncül mövqeyə çıxarmağa çalışdığımız bu nəşrin həm də beynəlxalq elmi arenada daha yaxşı tanınmasına imkan yaradacaqdır.

Elə bu məqsədlə veb-sayt dörd dildə istifadəçilərə təqdim olunur.Tərtibat və görünüşcə sadə olsa da, veb-saytımız məzmunca çox zəngin,  istifadə üçün rahat və  əlverişlidir. Buradakı bölmələr redaksiyanın fəaliyyəti, jurnalın mövzu istiqamətləri və əhatə dairəsi haqqında müfəssəl təsəvvür yaradır. Redaksiyaya dərc olunmaq üçün elmi məqalə təqdim edən müəlliflər onun resenziyalaşdırma prosesini veb-saytda izləyə biləcəklər.

Xatırladak ki, jurnala təqdim edilən elmi məqalələr Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblərə tam cavab verməlidir. Bu tələblər əsasında redaksiyamız tərəfindən tərtib olunmuş «Müəllif qaydaları»  veb-saytda yerləşdirilmişdir.

İstifadəçilərin saytla bağlı təklif və tövsiyələrini daim nəzərə alacağıq. Bunun üçün veb-saytda redaksiyanın rəhbərliyi və məsul əməkdaşları ilə əlaqə üçün lazımi imkanlar yaradılmışdır.

Əminik ki, veb-saytımız vergilər sahəsində elmi tədqiqatlar, nəzəri araşdırmalar aparanlar, respublikamızda vergiqoüma təcrübəsini öyrənənlər, həmçinin, çoxsaylı vergi ödəyiciləri üçün nüfuzlu bilik, məlumat mənbəyi olacaqdır.

